Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 82-83 (7131-7132) ❁ Bazar ertəsi, 4 noyabr 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# Heydər Əliyev Mərkəzində Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir

## İlham Əliyev Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun açılışında iştirak etmişdir

**Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərilmişdir. Bu, daim diqqət mərkəzində olan bir məsələdir. Hesab edirəm ki, ölkəmizdə bu sahədə artıq gözəl təcrübə də toplanıbdır.**

***İlham Əliyev,***
***Forumdakı nitqindən.***

Heydər Əliyev Mərkəzində Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu işə başlamışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak etmişlər.

Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir.

Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır.




Forumun həmsədrləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putindir.

Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunda dünyanın 70-dən çox ölkəsindən rəsmi şəxslər, sabiq prezidentlər, tanınmış elm, mədəniyyət xadimləri, Nobel mükafatı laureatları iştirak edirlər.

Dövlət başçısı Forumun açılışında nitq söylədi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Forum iştirakçılarına müraciəti oxundu.

BMT-nin baş katibi Pan Gi Munun forum iştirakçılarına müraciəti diqqətə çatdırıldı.

UNESCO-nun baş direktoru xanım İrina Bokovanın Forumun iştirakçılarına video müraciəti təqdim olundu.

Sonra İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri çıxış etdi.

Daha sonra Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl çıxış edərək forum iştirakçılarını salamladı.

Forum işini noyabrın 1-də başa çatdırmışdır.



